İSSN-0207-4710

# GÖYƏRÇİN



# BİRİNDƏN YAXA QURTARMAQ İSTƏDİ, İKİNCİSİNİ QAZANDI

*(Koreya nağılı)*

Bu hadisə lap qədim, heyvanların-quşların adam kimi danışdığı zamanda baş vermişdi. Bir kənddə iki qoca yaşayırdı. Birinin adı Pak, birinin adı isə Kim idi. Onların hər ikisinin boynunda yekə bir şiş-fır var idi. Qoca Pak çox xeyirxah, ləyaqətli bir insan olduğu üçün kənddə hamı onun xətrini çox istəyirdi. Kim isə çox hiyləgər və acıqlı bir qoca idi.

Bir dəfə xeyirxah Pak odun yığmaq məqsədilə dağa sarı üz tutdu. Qarşısına elə qalın bir meşəlik çıxdı ki, bəxti gətirən qoca çox sevindi. Hər şeyi unudub böyük həvəslə ağacları kəsməyə başladı. Başı o qədər işə qarışdı ki, günəşin nə vaxt batmasından belə xəbəri olmadı. Qaranlıq düşəndə Pak yığdığı odunları iplə bağlayıb kəndə sarı sürüməyə başladı.

Qoca nə qədər sürətli getsə də qaranlıq düşməmiş evə çata bilmədi. Gecənin qaranlığı ilə gedib, nəhayət, bir mağaraya rast gəlib sevindi. Qərara aldı ki, burada gecələsin. Odunu çiynindən yerə qoyub yatmaq üçün özünə yer düzətldi.

Qoca nə qədər yorulsa belə gözünə yuxu getmədi. Mağaranın qapısına gəlib ətrafı seyr etməyə başladı. Birdən onun ürəyindən mahnı oxumaq keçdi. Gecənin sakitliyi onun mahnılarını bir az da gözəlləşdirdi. Qocaya elə gəldi ki, dağdakı bütün ağaclar, otlar, quşlar böcəklər onun nəğməsini dinləyirlər.

Birdən xışıltı səsi gəldi. Qoca baxıb qarşısında buynuzlu bir şeytan gördü. O, bərk qorxdu və qaçmaq istədi. Şeytanların başçısı onun əlindən tutub dedi:

-Məndən qorxma. Oxuduğun mahnılar çox xoşuma gəldi. Bizim üçün yenə bir nəğmə oxu!

Qoca çar-naçar oxumağa başladı. Hər mahnı bitəndə şeytanlar onu alqışladılar. Nəhayət, şeytanların başçısı dedi:

-Çox sağ ol, mahnıların bizim çox xoşumuza gəldi. De görüm sənin belə gözəl oxumağına səbəb nədir?

Qoca boynundakı şişi göstərib dedi ki, bəlkə də yaxşı oxumağımın səbəbi budur.

Şeytanların başçısı israr elədi ki, bu şişi ona satsın. Qoca razılaşdı. Ancaq xəbərdar elədi ki, ola bilsin, bu şiş sizə kömək etməsin.

Şeytan sevinclə qocanın boynundakı şişi qoparıb öz boynuna yapışdırdı. Əvəzində qocaya içi qızıl-gümüşlə dolu bir sandıq bağışladı.

Səhər açılanda qoca sandığı da götürüb sevinə-sevinə evinə qayıtdı. Başına gələnləri hamıya danışdı.

Hiyləgər, xəbis Kim bunu eşitdi və bəxtini sınamaq istədi. Gecə Pakın dediyi mağaraya gedib oxumağa başladı. Səsə şeytanlar gəlib çıxdılar. Kim onlara dedi:

-Mənim boynumdakı şişi götürüb əvəzində çoxlu qızıl versəniz gözəl-gözəl mahnılar oxuya biləcəksiniz.

Şeytanların başçısı acıqlandı. Dedi ki, bizi aldadıblar, ində də sən bizə kələk gəlmək istəyirsən?

Şeytanlar qocanı necə cəzalandırmaq haqqında fikirləşdilər və qərara aldılar ki, dünən Pakın boynundan qopardıqları şişi Kimin boynuna yapışdırsınlar. Onlar belə də etdilər.

Elə o vaxtdan belə bir məsəl qalıb: "Birindən yaxa qurtarma istəyirdi, ikincisini qazandı".

*Tərcümə edib işləyəni R.Y.Əliyev*



